# "ABŞ Konqresinin bir qrup üzvünün Prezident Baydenə qərəzli məktubunu sərt şəkildə qınayırıq"

"Biz, Ermənistandan qovulmuş azərbaycanlıları özündə birləşdirən Qərbi Azərbaycan İcması, Amerika Birləşmiş Ştatları (ABŞ) Konqresinin bir qrup üzvünün Prezident Cozef Baydenə 2023-cü il oktyabrın 2-də göndərdiyi qərəzli məktubu sərt şəkildə qınayırıq".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının açıqlamasında yer alıb.

Açıqlamada həmçinin bildirilib: "Məktub mahiyyətcə yanlışdır, zərərlidir və etnik azərbaycanlılara qarşı qərəz və ayrı-seçkiliyi bariz şəkildə göstərir. Belə görünür ki, Qarabağın erməni sakinlərinin tamhüquqlu vətəndaş kimi Azərbaycana reinteqrasiyasına qarşı çıxan və regionda monoetnikliyi dəstəkləyən təkcə Ermənistan hökuməti deyil, həm də Konqresin məlum üzvləri imiş.

ABŞ-nin Azərbaycana dövlət yardımını qadağan edən mənfur 907-ci maddənin tətbiqinin bərpa edilməsi və əlavə sanksiyalar barədə konqresmenlərin çağırışı ədalətsiz və qeyri-dost addımdır. Ərazisinin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalmış, bir milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş, 30 mindən artıq sakini öldürülmüş, minə yaxın şəhər və kəndi dağıdılmış Azərbaycana qarşı bu mənfi addımlara çağırmaqla, konqresmenlər faktiki olaraq, Ermənistanın sözügedən cinayətlərinə şərik olurlar.

Müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə, o cümlədən Xocalı soyqırımı, Qaradağlı, Meşəli, Malıbəyli qətliamlarında və Azərbaycanın şəhərlərini raket atəşinə tutmaqda iştiraklarına dair ciddi əsaslar olan separatçıları müdafiə etmək ABŞ konqresmenlərinə şərəf gətirmir.

Nəhayət, vurğulamaq istərdik ki, ABŞ konqresmenləri bir dəfə də olsun Ermənistandan 300 minə yaxın azərbaycanlının qovulması faktına münasibət bildirməyiblər. Bu məsələyə dair ABŞ Konqresinin Tom Lantos adına insan hüquqları komissiyasına göndərdiyimiz müraciət cavabsız qalıb.

Biz konqresmenləri etnik və dini əsaslı ayrı-seçkilik və qərəzli yanaşmalarına son verməyə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə, onun etnik müxtəliflik və birgəyaşayışa əsaslanan reinteqrasiya tədbirlərinə dəstək verməyə, Ermənistanın törətdiyi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə münasibət bildirməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə öz evlərinə qayıtmasına dəstək verməyə çağırırıq".

Azərbaycan. - 2023.- 4 oktyabr.- S.2.